# Ədalət xalqımızın prinsiplərinin ana xəttidir

**_Bu gün çiçəklənən, həyatın bütün sahələrinin inkişafı fonunda Azərbaycan dünyada həm də idman ölkəsi kimi tanınır. Mötəbər beynəlxalq turnirlərə evsahibliyi edən ölkəmiz etimadı şərəflə dogruldaraq dünya idman ictimaiyyətinin rəgbətini praktiki əməllə qazanır, idmana sədaqətini nümayiş etdirir._**




İlham Əliyevi 1997-ci ildə Azərbaycan Milli Olimpiya Komitəsinə sədr seçiləndən sonra respublikamızın idman sahəsi yeni inkişaf dövrünə qədəm qoydu. Bununla da müstəqilliyin ilk illərində yox olmaq təhlükəsi ilə üzləşən, unudulan idman təsərrüfatımızda canlanma yarandı. Bakıda, regionlarda müasir, dünya standartlarına cavab verən idman kompleksləri tikilib istifadəyə verilidi.

Ölkədə idmanın kütləviliyi artırıldı, isdedadlı idmançıların meydana çıxmasına ciddi zəmin yaradıldı. Bundan başqa gənclərin zərərli vərdişlərdən uzaqlaşmalarına, asudə vaxtlarını səmərəli keçirilmələrinə əlverişli şərait yaradıldı. Bu ugurlu strategiya respublikada saglam, vətənpərvər gəncliyin yaranmasına, idmanın inkişafına ciddi təkan verdi.

Göstərilən qaygının məntiqi nəticəsi olaraq  qısa zamandan sonra mötəbər beynəlxalq yarışların finallarından sonra səhnədə qalib Azərbaycan idmançısının sevincinə və müqəddəs üçrəngli bayragımızın birincilər sırasında dalgalanmasına şahidlik etdik, bir sözlə, ardıcıl qələbələr qazandıq.

Şübhəsiz ki, xalqımıza bu sevinci Prezident İlham Əliyev yaşatdı və bu gün də yaşatmaqda davam edir. Dövlət başçısının idmana, idmançılara diqqəti nəticəsində Azərbaycan beynəlxalq qaliblər sırasında öz mövqeyini getdikcə möhkəmlədir. Bir neçə gün bundan əvvəl ölkə rəhbəri Macarıstanda keçirilmiş Güləş üzrə Avropa çempionatında iştirak edən Azərbaycan millisinin üzvləri ilə görüşməsi də bu qaygının parlaq ifadəsi idi.

Yeri gəlmişkən, Budapeştdə keçirilmiş Avropa çempionatında güləşçilərimiz böyük qələbə qazanmaları ilə xalqımız sonsuz sevinc hissi yaşayıb. Bu mötəbər turnirdə idmançılarımızın 16 medal əldə etmələri Azərbaycanın şöhrətini daha da artırıb.

Görüşdə ölkə başçısı tam haqlı olaraq 44 gün ərzində böyük tarixi Qələbə qazanmış xalqı təmsil etməyin həm böyük qürur doğurduğunu, həm də məsuliyyətli oldugunu vurguladı. Bundan başqa Prezident İlham Əliyev idmançılara yarışa çıxanda müzəffər ölkəni və qalib xalqı təmsil etdiklərini unutmamalarını xatırladaraq, həm gənclər, həm də böyüklər arasında Avropada birinci yeri tutmagın böyük nailiyyət oldugunu bildirdi. Dövlətimizib başçısı xüsusi olaraq  söylədi ki, güləşdəki ənənələrimiz yaşayır və güclü gənc nəsil yetişir. Qələbə seriyalarımız isə ölkəmizin və idmanımızın beynəlxalq nüfuzunu artırır.

İki ildən sonra Parisdə keçiriəcəyi planlaşdırılan Yay Olimpiya Oyunlarına bütün idman növlərində lisenziya qazanmagın vacibliyini vurğulayan Azərbaycan Prezidenti idmançılara bu əsas yarışa indidən hazırlaşmagı tövsiyə etdi.

Biz döyüş meydanında ləyaqətlə savaşaraq Vətəni şərəfləndirdik. Kimsə söyləyə bilməz ki, düşməndən fərqli olaraq, Silahlı Qüvvələrimiz tərəfindən mülki əhali hədəf götürülub, şübhəsiz ki, belə nümunə yoxdur. Biz savaşımızı, haqlı mübarizəmizi diplomatiya, döyüş və idman arenalarında  belə şərəflə aparmışıq.

Ölkə başçısının qeyd etdiyi kimi, qələbədən daha vacib ləyaqətdir. Bu, dövlət, xalq olaraq bizim həyat amalımızdır. İdmançılarımızın uğurunun mayasında ləyaqət və hallalıq dayanır. Yarışlarda da "feyr-pley" anlayışı idmançılarımız və məşqçilərimiz tərəfindən hər zaman qorunur. Çünki ədalət bizim prinsiplərimizin ana xəttidir.

**_Rəşad MAHMUDOV,_**
**_Milli Məclisin deputatı,_**
**_YAP İdarə Heyətinin üzvü_**